# Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi-sosial siyasəti

Müsəlman Şərqində ilk parlament respublikası - müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin qurulması təsadüfi bir hadisə olmayıb, xalqımızın keçdiyi mürəkkəb və ziddiyyətli ictimai-siyasi, iqtisadi-sosial, mədəni-mənəvi inkişaf yolunun məntiqi nəticəsi idi.

Hər bir millətin özünüdərki və oyanışı prosesi, əvvəlki nəsillərin maarifçilik ideyaları, yeniləşmək arzuları, mübarizlik çağırışları, insan hüquqlarına, onun ləyaqətinə hörmət göstərilməsi təməlində formalaşır. Bu mənada bizim müdrik sələflərimiz—Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov, Rəşid bəy Əfəndiyev, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyov, Firudin bəy Köçərli, Əlibəy Hüseynzadə, Əhməd Ağaoğlu, Mirzə Ələkbər Sabir, Məhəmməd Hadi, Əhməd Cavad, Hüseyn Cavid və başqaları tərəfindən əsası qoyulmuş müxtəlif istiqamətli ictimai-siyasi, sosial-iqtisadi, mədəni-əxlaqi mütərəqqi meyillər millətimizin gələcək taleyinə çox böyük təsir göstərmişlər.

XIX əsrdən başlanan mürəkkəb ictimai-siyasi proseslərin gedişi Azərbaycan cəmiyyətində zamanın tələblərinə uyğun köklü dəyişikliklərı tarixi zərurət kimi irəli sürərək Azərbaycan Xalq Cümhuriyyətinin qurulması üçün əlverişli zəmin yaratdı.

Rusiyada 1917-ci ilin fevral burjua-demokratik inqilabı və oktyabr çevrilişindən sonra ölkədə yaranmış böhranlı vəziyyətlə bağlı Zaqafqaziyadan Rusiyanın Müəssislər Məclisinə seçilmiş nümayəndələr 1918-ci il fevralın 14-də Tiflisdə toplaşıb Zaqafqaziya Seymini yaratdılar. Bu qurum isə həmin il aprelin 9-da Zaqafqaziyanın suverenliyini və Zaqafqaziya Qoşma (federativ) Xalq Cümhuriyyəti yaradıldığını elan etdi. Lakin obyektiv-subyektiv dövlətlərin siyasəti sayəsində həmin yoldakı səylər uğursuzluqla nəticələndiyindən, başqa siyasi variant seçildi.

1918-ci il mayın 27-də Zaqafqaziya Seyminin müsəlman fraksiyasının üzvləri ayrıca iclas keçirərək, Azərbaycanın müstəqilliyini elan etmək qərarına gəldilər. Hərtərəfli müzakirələrdən sonra müsəlman fraksiyası o ağır dövrdə Azərbaycanın idarə olunmasını öz üzərinə götürərək Milli Şuranın yarandığı elan olundu. Həmin iclasda Azərbaycan Milli Şurasının rəyasət heyətinin tərkibi müəyyənləşdirildi və M.Ə.Rəsulzadə gizli səsvermə yolu ilə Milli Şuranın sədri seçildi. May ayının 28-də isə ətraflı müzakirələrdən sonra Azərbaycanın istiqlaliyyəti haqqında Bəyannamə qəbul olundu.

İstiqlal Bəyannaməsində elan edilmiş prinsiplər - Azərbaycan xalqının öz müqəddəratını müəyyən etmək, insanların hüquq bərabərliyinə hörmət, bütün xarici dövlətlərlə, habelə qonşu xalqlarla dinclik və əmin-amanlıq şəraitində yaşamaq, bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşmaq mövqeyi Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq aləmdə nüfuzunu artırdı. 1920-ci ilin yanvarında Paris sülh konfransında Azərbaycan dövlətinin müstəqilliyi de-fakto tanındı.

Mərhum Prezident Heydər Əliyev, yeni əsr və üçüncü minillik münasibətilə "Azərbaycan XXI əsr və üçüncü minilliyin ayrıcında" adlı müraciətində "xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi" qiymətləndirdiyi Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdəki rolunu, onun xadimlərinin əməyinin qədirbilənliklə yad edilməsinin zəruriliyini vurğulayaraq yazmışdı: "Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır".

Tarixi təcrübə sübut etmişdir ki, iqtisadiyyatla siyasətin, təsərrüfat həyatı ilə hakimiyyətin qarşılıqlı münasibətlərinin nəticəsi adətən 3 istiqamətdə özünü daha bariz surətdə göstərir. **Birinci halda** hakimiyyətlə iqtisadiyyat eyni istiqamətdə irəliləyərək birbirinə müsbət təsir göstərdiklərindən cəmiyyətin inkişafı sürətlənir. **İkinci halda** siyasi hakimiyyətlə ölkənin iqtisadi inkişafı əks istiqamətlərə yönəldiyindən, belə quruluş müəyyən bir vaxt keçdikdən sonra tədricən pozulub dağılır. **Üçüncü halda** isə hakimiyyət məhdudiyyət və qadağan tədbirləri, yaxud inzibati-amirlik üsulları ilə cəmiyyətin iqtisadi inkişafına manelər yaradaraq onun başqa istiqamətlərdə irəliləyişini təmin edə bilər.

Bu nöqteyi-nəzərdən Azərbaycan Xalq Cümhuriyyətinin 1918-1920-ci illəri əhatə etmiş fəaliyyətini, onun ölkənin təsərrüfat həyatına dair siyasətini düzgün qiymətləndirmək üçün, ilk növbədə yeni hakimiyyətə miras qalmış vəziyyəti təhlil etmək zəruridir.

O dövrdə müxtəlif ölkələr tərəfindən blokadaya alınmış Azərbaycanın iqtisadi vəziyyəti çox ağır idi. 1919-cu ildə hasilatın xeyli aşağı düşməsinə baxmayaraq, neft daşınmasında yaranmış problemlər üzündən ifrat istehsal böhranı yaranmışdı. Neft sənayesindəki çətin vəziyyət öz mənfi təsirini elektrik enerjisi istehsalına, dəmir və dəniz yolu nəqliyyatına, maşınqayırma, metal emalı, gəmi və digər təmir emalatxanalarının işinə də göstərmişdi. Gənc respublikanın xalq təsərrüfatının başqa sahələrində də vəziyyət acınacaqlı idi. Qəzalarda yerləşmiş mis mədənlərində, pambıqtəmizləmə zavodlarında, ipək fabriklərində, digər emal müəssisələrində istehsal kəskin surətdə aşağı düşmüşdü. Xəzər dənizində balıq ovu 4-5 dəfə azalmış, əkin sahələri xeyli ixtisar olunmuş, su təsərrüfatı sistemi bərbad hala düşmüş, kənd təsərrüfatının taxılçılıq, maldarlıq, bağçılıq, meyvəçilik kimi sahələrinə ciddi ziyan dəymişdi.

> **"Azərbaycan Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olan müasir Azərbaycan Respublikası onun dövlətçilik ideyalarını və ənənələrini yaşadacaq, müstəqilliyi qoruyub saxlayacaq və möhkəmləndirəcək, ölkəmizi tərəqqiyə qovuşduracaqdır".**
>
> **İlham ƏLİYEV,**
> **Azərbaycan Respublikasının Prezidenti.**

Yaranmış çətin vəziyyətin mürəkkəbliyini dərk etməyə çağıran M.Ə.Rəsulzadə o günlərdə yazmışdı: "Zaman ağır, gedəcəyimiz yol tikanlı və əngəllidir. İrəlidə bir çox fədakarlıq etməli, səbat və səy göstərilməlidir".

Bu mənada Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi sistemin əsasını təşkil edən mülkiyyət münasibətlərinin dəyişdirilib yenidən qurulması prosesindəki yaradıcılıqla düşünülmüş təmkinli (təkamül xarakterli) xətti; aqrar-torpaq islahatlarındakı mövqeyi; sənaye sahələrinin inkişafına dair ölçülüb-biçilmiş siyasəti; maliyyə-bank və pul-valyuta məsələlərindəki mövqeyi; inflyasiyanı tənzimləmək istiqamətindəki tədbirləri; ölkənin xarici iqtisadi əlaqələrini genişləndirmək səyləri; əhalinin həyat səviyyəsini yaxşılaşdırmaq sahəsindəki tədbirləri; təhsil, səhiyyə, habelə digər sahələrə gündəlik qayğısı, şübhəsiz, əsl milli hökumətin ümumxalq qayğısının ifadəsi idi.

Fəaliyyət göstərdiyi 23 ay ərzində Azərbaycan Xalq Cümhuriyyəti, müstəqil dövlətin atributlarından sayılan himn, bayraq, gerb təsdiq olunmuş; milli pul vahidi dövriyyəyə buraxılmış; Azərbaycan Dövlət Bankı yaradılmış; maliyyə-kredit və vergi-gömrük sistemi formalaşdırılmış; Bakı-Culfa dəmir yolu xəttinin inşası başa çatdırılmış; Kür çayı üzərindən yeni körpü salınmış; ölkə ərazisində nəqliyyat-rabitə, poçt-teleqraf, telefon əlaqələri qaydaya salınmış; xarici dövlətlərdə yüksək ixtisaslı kadrların təhsil alması işlərinə başlanmış; yeni məktəblər açılmış; yaşlı əhalinin savadsızlığını aradan qaldırmaq üçün xüsusi axşam kursları təşkil olunmuş; ilk ali təhsil ocağı sayılan Azərbaycan Dövlət Universiteti fəaliyyətə başlamışdır.

Gənc müstəqil dövlətin ciddi çətinliklərlə, obyektiv-subyektiv xarakterli manelərlə üzləşməsinə baxmayaraq, atdığı ilk addımlar və sosial-iqtisadi sahələrdəki müəyyən uğurların nəticəsi idi ki, tədricən "Avropanın, Amerikanın elçiləri Azərbaycanın paytaxtını ziyarət edərək, onu tanıdıqlarını və bizimlə hər növ mədəni və ticarət əlaqələrinə girmək istədiklərini bildirirlər" (M.Ə.Rəsulzadə).

Hər bir millət öz varlığını, acılı-şirinli tarixi yaddaşı, haqq-ədalət meyarlarına hörməti, keçmişinin şərəfli səhifələri ilə fəxr etmək və bunları əsl övlad-varis qeyrəti ilə yaşatmaq bacarığıyla ucalır. Azadlıq, müstəqillik, suverenlik tariximizin mübariz ənənələrinə sağlam münasibət və məsuliyyət hissi elə bir tarixi örnəkdir ki, bizə kimliyimizi, haradan başlayıb nələrə nail olduğumuzu, nəhayət, daha yüksək zirvələrə doğru hərəkətimizi müəyyənləşdirən mayakdır.

Bu mənada "xalqımızın azadlıq hərəkatı salnaməsinin o dövrü və Azərbaycan Xalq Cümhuriyyətinin 2 illik çoxcəhətli siyasi-ictimai, iqtisadi-sosial, mədəni-mənəvi fəaliyyəti, Şərq ətaləti, işğalçı dövlətlərin əsarəti, görünməmiş təzyiqləri mühitində milli oyanışın, habelə özünüdərkin bariz ifadəsi idi".

Bu böyük yolun ilk addımları XIX əsrin ikinci yarısından başlayaraq, müxtəlif istiqamətli böyük maarifçi-demokratlar nəsli tərəfindən atılmış, lakin milli dövlətçilik, azərbaycançılıq ideyası, müstəqillik amalları müstəvisində Azərbaycan Xalq Cümhuriyyətinin liderləri tərəfindən işlənib hazırlanmış, habelə reallaşdırılmışdır. Doğrudur, "o demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır. Ən əsası odur ki, Azərbaycan Xalq Cümhuriyyəti az yaşasa da, xalqımızda azadlıq, müstəqillik fikirlərini daha da gücləndirmiş oldu" (Heydər Əliyev).

Müstəqillik illərində Azərbaycan Respublikasının sosial-iqtisadi sahələrdə qazandığı uğurlar bir daha təsdiq edir ki, həqiqətən "öz təbiətinə və potensial sərvətlərinə görə bənzərsiz olan bu diyar, yerin təkində fəvvarələr və alovlar saxladığı kimi, öz vətəndaşlarının qəlblərinin ən dərin guşələrində belə bir yaradıcılıq ruhu yaşadır ki, bu yaradıcılıq ruhu türk xalqının azad inkişafı şəraitində, mənim dərin əqidəmə görə dünyaya orijinal bir mədəniyyət nümunəsi bəxş edəcəkdir" (M.Ə.Rəsulzadə).

Azərbaycanın gələcək yüksəlişinə böyük ümidlə deyilmiş bu fikrin arxasında çox qədim tarixə malik, əlverişli coğrafi-iqlim şəraiti, mühüm strateji mövqeyi, zəngin yeraltı-yerüstü sərvətləri ilə fərqlənən bir ölkənin həm ictimai-siyasi, həm iqtisadi-sosial, həm də mənəvi-mədəni dəyərlərinin həyat gücünə əsl övlad məhəbbətindən, sonsuz milli qürur hissindən doğan nurlu inam, dönməz əqidə və fədakarlıq durmuşdur.

Qərblə-Şərqin qovuşuğunda təkrarsız sənətkarlıq və memarlıq abidələrinin, ilk neft quyuları və neftqazıma texnika-texnologiyasının, dramaturgiya və peşəkar teatrın, qəzet və satirik məcmuənin, milli opera və parlamentli demokratik respublikanın, elektrikləşdirilmiş dəmir yolu xəttinin və əfsanəvi "Neft daşları"nın, balet musiqisi və simfonik muğamların, orijinal rəssamlıq məktəbi və muğamla caz musiqisi sintezinin Vətəni sayılan Odlar Yurdunu perspektivdə daha böyük uğurlar, yeni nailiyyətlər gözləyir.

Müstəqillik illlərində ölkəmizin iqtisadi-sosial inkişafı yolunda qazanılmış uğurlara baxmayaraq, qarşıda ərazi bütövlüyümüzün bərpası, əhalinin yoxsulluğunun aradan qaldırılması, məşğulluğun təmin olunması, inflyasiyanın aşağı salınması, minimum əmək haqqı, orta aylıq əmək haqqı, yaşayış minimum səviyyəsinin müasir orta dünya standartlarına çatdırılması, rüşvətxorluq-korrupsiya hallarına qarşı qətiyyətlə mübarizə aparılması, təsərrüfat həyatının strukturunun təkmilləşdirilməsi, qeyri-neft bölməsinin daha yüksək templərlə inkişafına diqqət yetirilməsi, kəndli-fermer təsərrüfatlarına hərtərəfli qayğı göstərilməsi, elm və təhsil sisteminin günün tələblərinə cavab verməsi kimi məsələlərin həlli durur.

Azərbaycan Xalq Cümhuriyyətinin varisi sayılan müasir Azərbaycan Respublikasının qarşısında duran mürəkkəb daxili-xarici siyasət problemlərini həll etmək üçün yaradılmış real maddi-texniki bazadan, ixtisaslı kadr potensialından, maliyyə-valyuta resurslarından "neft kapitalını insan kapitalına çevirmək" (İlham Əliyev) vəzifəsi baxımından bacarıqla faydalanmaq lazımdır.

Bu çətin vəzifələri uğurla həyata keçirmək üçün ilk növbədə müstəqil dövlətçilik ideyalarına sədaqət təməlində cəmiyyətin müxtəlif təbəqələrinin milli həmrəyliyi təmin olunmalı, "daxili düşmən" axtarışı üsullarına son qoyulmalı, iqtidarlı-müxalifətli qərəzli, qarşılıqlı ittihamlardan əl çəkməli, söz və mətbuat azadlığına hörmətlə yanaşılmalı, insan hüququ və haqları pozulmamalı, bütün mübahisələr, tənqidlər "öncə Vətən, milli dövlətçilik, ümummilli maraqlardır" prinsiplərinə söykənərək, yaranmış ən çətin vəziyyətlərdən belə optimal çıxış yolları axtarıb tapmaq istiqamətində getməlidir. Çünki "bu gün firqə ehtirasları, şəxsi qərəzlər və bütün bu kimi Vətən və Millət qarşısında səqit (lüzumsuz) qalan qərəzlər atılmalı, Vətən qayəsi, Millət duyğusu hər şeydən yüksək tutulmalıdır" (M.Ə.Rəsulzadə).

Bizim siyasi və mənəvi sələflərimiz belə mərd, təmənnasız, demoktratik dəyərlərə, ümummilli mənafe ideallarına həmişə sadiq və nəcib Kişilər kimi fəaliyyətə başlamış, millətə xidmət göstərmişlər.

Onların demokratik ideyalarına, fədakar əməllərinə və müqəddəs arzularına sadiqlik əsasında qədim Odlar Yurdunun müasir iqtisadi inteqrasiya, habelə qloballaşma şəraitində daha yüksək zirvələrə ucalması istiqamətindəki yorulmaz səylərimiz hamımızın namus-qeyrət borcudur.

**Qüdrət ƏBDÜLSƏLİMZADƏ,**
**iqtisad elmləri doktoru, professor.**